# TƏLİMİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN İŞ FORMALARI

***Rəhimova Səbinə Rövşən qızı***
***"Cahan" körpələr evi-uşaq bağçasının metodisti***
***sabinarahimova74@gmail.com***

*Məktəbəqədər dövr insan həyatının əsaslı bünövrəsinin qoyulduğu ən həssas mərhələlərdən biridir. Bu mərhələdə uşaqların təlim və tərbiyəsi onların gələcək sosiallaşma, əqli inkişaf və öyrənməyə münasibəti baxımından mühüm rol oynayır. Bunu nəzərə alaraq öyrənmə prosesinin düzgün təşkilinə diqqətlə yanaşılmalıdır. Öyrənmə prosesində istifadə olunan metodlar, iş formalarının seçilməsi və tətbiqi elmi cəhətdən əsaslandırılmalıdır. Müasir təhsil yanaşmaları göstərir ki, uşaqların hərtərəfli harmonik inkişafı üçün təlim prosesinin interaktiv, yaradıcı və fərdi ehtiyaclara uyğun olması vacibdir. Bu məqalənin məqsədi — məktəbəqədər təhsil səviyyəsində istifadə olunan təlim formaların elmi əsaslarını və praktiki tətbiq imkanlarını təhlil etməkdir.*

*Bu tədqiqat məqaləsində məktəbəqədər təhsil səviyyəsində təlimin təşkili zamanı istifadə olunan iş formalarının elmi-nəzəri əsasları və praktik əhəmiyyəti araşdırılır. Uşaqların yaş xüsusiyyətləri və inkişaf dinamikası nəzərə alınmaqla, kollektiv, qrup, cütlərlə və fərdi iş formalarının tətbiqi imkanları elmi əsaslarla təhlil olunur. Məqsəd təlimin keyfiyyətini və uşaqlarda öyrənməyə marağı artıran müasir yanaşmaları müəyyənləşdirməkdir. Müasir pedaqoji tendensiyalar, eləcə də kurikulum tələblərinə uyğun olaraq tətbiq olunan metodların praktiki nəticələri müqayisəli şəkildə təqdim olunur. Məqalə pedaqoqlar üçün metodiki tövsiyələr və inkişaf istiqamətləri təqdim etmək baxımından əhəmiyyətlidir.*

*Məqalənin məqsədi məktəbəqədər yaş dövrü uşaqlar üçün daha effektli və şəxsiyyətyönlü təlim modellərinin hazırlanmasında tərbiyəçi-müəllimlərə dəstək olmaqdır. Araşdırmada* Albert Banduranın "sosial öyrənmə", *Lev Vıqotskinin "proksimal inkişaf zonası",* Maria Montessorinin tədris modelinə, *Con Dyunun təcrübə əsaslı təlim nəzəriyyəsi və humanist yanaşmalar əsas götürülərək təlimin təşkilinə dair tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *Məktəbəqədər təhsil, iş forması, pedaqoji nəzəriyyə, şəxsiyyətyönlü inkişaf, uşaqyönümlülük, inkişafyönümlülük, əməkdaşlıq, effektiv öyrənmə.*

## Problemin qoyuluşu:

Uşaq həyatının məktəbəqədər dövrü uşaqların təfəkkürünün, yaradıcılığının, sosial bacarıqlarının ümumiyyətlə hərtərəfli formalaşmasında həlledici mərhələdir. Məktəbəqədər təhsil müəssisələrində uşaq fəaliyyətinin düzgün təşkili vacibdir. Təhsil sistemində təlim prosesində tətbiq olunan iş formalarının ənənəvi yanaşmalar üzərində qurulması, çox zaman uşaqların fərdi inkişaf imkanlarını məhdudlaşdırır. Öyrənmə prosesində iş formalarının təlim məqsədinə, uşaqların fərdi xüsusiyyətlərinə, maraqlarına, ehtiyaclarına və s. tələblərə uyğun seçilməsi motivasiya, iştirak eləcə də nəticə baxımından prosesi səmərəli edir. Bu səbəbdən, müasir pedaqoji yanaşmalara əsaslanaraq optimal təlim formalarının müəyyənləşdirilməsi elmi və praktik baxımdan aktuallıq daşıyır.

**Hipotez**

Əgər öyrənmə prosesinin strategiyası təlim məqsədinə, uşaqların fərdi xüsusiyyətlərinə, maraqlarına, ehtiyaclarına və s. tələblərə uyğun seçilərsə, öyrənmə prosesi uşaqlar üçün maraqlı, aktiv və nəticə baxımından effektiv olar. Uşaqda xoşbəxt öyrənmə baş verər. Tərbiyəçi-müəllim iş formalarını təlim mühitini, uşaqların ehtiyaclarını, mövcud şəraiti nəzərə alaraq seçərsə, təlim məqsədinə asanlıqla nail olar. Məktəbəqədər öyrənmə prosesində oyunəsaslı, layihə əsaslı və s. müasir metodlar didaktik prinsiplər əsasında tətbiq olunarsa, uşaqlarda öyrənmə motivasiyası, sosial bacarıqlar və yaradıcı təfəkkür daha yüksək səviyyədə inkişaf edəcəkdir. İnteraktiv təlim fəaliyyətində ilkin həyati bacarıqlar formalaşacaq.

**Giriş**

Məktəbəqədər yaş dövrü uşaqların öyrənmə potensialının ən yüksək olduğu mərhələ kimi qəbul edilir. Bu dövrdə verilən təlimin məzmunu və təşkilat forması uşağın gələcək təhsil uğurlarının əsasını təşkil edir. Pedaqogikanın klassik və müasir nəzəriyyələri göstərir ki, uşaqlar üçün təlim yalnız bilik ötürülməsi prosesi deyil. Bu həm də sosiallaşma, yaradıcı inkişaf və şəxsiyyət formalaşmasının mühüm vasitəsidir. Odur ki, təlimin təşkili zamanı düzgün strategiya pedaqoji prosesin effektivliyini təqdim edir. Bilavasitə iş formalarının doğru seçilməsi və tətbiqi uşaq şəxsiyyətinin inkişafı işində öz imzasını atır.

**Tədqiqat sualları:**

1. Məktəbəqədər təlimdə hansı iş formaları var?
2. Uşaq şəxsiyyətinin hərtərəfli inkişafının təşkilində iş formalarının effektiv tətbiqi yolları hansılardır?
3. Bu iş formalarında fəaliyyət uşaqların inkişafına necə təsir edir?
4. Müasir pedaqoji nəzəriyyələr bu iş formalarının tətbiqini necə əsaslandırır?

**Tədqiqatın məqsədi:**

Təlim prosesində istifadə olunan iş formalarını elmi-nəzəri əsaslar baxımından təhlil edib, onların uşaqların inkişafına təsirini müəyyənləşdirərək tərbiyəçi-müəllimlərə təcrübədə seçim və tətbiq istiqamətində tövsiyələr vermək.

Müasir təhsil tərbiyəçi-müəllimlərdən təhsil qanununda, eyni zamanda kurikulum proqramında vurğulanan didaktik prinsiplər əsasında öyrənmə və öyrətmə prosesinə yeni yanaşmalarını tələb edir. Müasir təhsil öyrənmə prosesinin mərkəzində uşağı görə bilən və fəaliyyətləri uşaqmərkəzli strategiya ilə quran tərbiyəçi-müəllimi tələb edir. Bacarığa əsaslanan öyrənməni təşkil etmək üçün təhsilverənlər elmi-nəzəri praktik bilik və bacarıqlara yiyələnmiş olmalıdırlar. Uşaq şəxsiyyətinin formalaşması prosesinin düzgün təşkili, tərbiyəçi-müəllimin düzgün strategiya qurmağı vacibdir.

Məktəbəqədər təhsil kurikulumu məktəbəqədər təhsilin məzmunu, təlim strategiyaları və uşaq inkişafının izlənilməsinə dair tərbiyəçi-müəllimləri istiqamətləndirir.




**<u>Strategiya</u>** - əvvəlcədən müəyyən edilmiş nəticəyə (nəticələrə) çatmaq üçün hazırlanan məqsədlər zənciri, subyektin məqsədinə çatması üçün düşünülmüş, planlı fəaliyyət modelidir. Strategiya minimal əmək, vaxt və resurs sərf etməklə optimal nəticəyə necə çatmağın yollarını göstərir. Strategiyanın məzmununa fəaliyyət istiqamətinə uyğun olaraq məntiqi qərarlar toplusu daxildir. Təlim strategiyaları təlim prosesi və onun təşkili prinsipləri, təlimin təşkilində istifadə edilən forma, üsullar və təlimin planlaşdırılmasını əhatə edir.




**İş forması**

Məktəbəqədər təhsildə təlimin keyfiyyətli təşkili üçün istifadə olunan iş formaları — fərdi, cütlərlə, qrup və kollektiv fəaliyyətlərdir. İş formaları uşaqların idraki, sosial və emosional inkişafını dəstəkləyən mühüm komponentlərdəndir. Bu formaların tədris prosesində səmərəli tətbiqi, Lev Vıqotskinin "proksimal inkişaf zonası" (ZPD) nəzəriyyəsinə əsasən, uşaqların tək başına deyil, başqalarının köməyi ilə çata biləcəkləri inkişaf səviyyəsinə istiqamətlənmiş təlim mühitini formalaşdırılmasına da dəstək olur. Məktəbəqədər təhsil dövründə uşaqların inkişafı kompleks və çoxşaxəli proses olduğu üçün təlim prosesində istifadə olunan iş formaları da bu müxtəlifliyi əhatə etməlidir. Təlimin yalnız bilik əldə edilməsi deyil, həm də şəxsiyyətin formalaşmasına yönəlmiş olması tələb edilir. Bu da yalnız bir formaya əsaslanmaqla deyil, iş formalarının bir-birini tamamlaması ilə mümkündür. Yəni iş formalarının uşaqların ehtiyaclarını nəzərə alaraq fəaliyyətlərdə istifadə edilməsi səmərəlidir.

1-2 və 2-3 yaşlı uşaqlar üçün məşğələlər fərdi, yarımqruplarla, kollektiv təşkil edilir. 3-6 yaşlı uşaqlarla isə fərdi, cütlərlə, qruplarla və kollektiv iş formalarından istifadə edilir.




| İş forması | Xüsusiyyətləri | Məqsədi | Üstünlükləri | Riskləri |
|---|---|---|---|---|
| **Fərdi iş** | Tapşırıq üzərində bir uşaq işləyir; Uşağın fərdi maraqları, inkişaf səviyyəsi və ehtiyacları nəzərə alınır; qısa müddətli, lakin intensiv tapşırıqlarla aparılır. | Fərdi potensialın aşkarlanması, özünütəhlil və qərarvermə bacarığının inkişafı | Şəxsi inkişaf: Fərdi öyrənmə uşağın öz ritminə uyğun irəliləməsinə imkan verir. | Sosial təcrid: Daim fərdi öyrənmə sosial nizamsızlığa səbəb ola bilər. Uşaqların sosial bacarıqları azala bilir (Cohen, 1994). Maraqsızlıq: Bəzi uşaqlar tək başına işləməkdən bezə bilər, bu da onların motivasiyasını azaldır (Deci & Ryan, 1985). |
| **Cütlərlə iş** | Tapşırıq üzərində iki uşaq birgə işləyir. Məsuliyyət bölünür; Uşaqlar bir-birlərinə kömək edə bilir, fikir mübadiləsi aparırlar. | Uşaqlar arasında ünsiyyət qurmaq; Birgə düşünmə və həll yolu axtarma bacarığını inkişaf etdirmək. | Kommunikativ bacarıqların inkişafı üçün əlverişlidir və sosiallaşma prosesi güclənir. | Asılılıq – uşaqların müstəqil düşünmə bacarıqlarını zəiflədə bilər (Slavin, 1995). Mübahisələr: Cütlərlə iş zamanı fikirlər arasında qarşıdurmalar ola bilər (Kagan, 1994). |

| | | | | |
|---|---|---|---|---|
| **Qruplarla iş** | 3-4 nəfərdən ibarət kiçik qruplar yaradılır; Qrup daxilində müəyyən vəzifə bölgüsü aparılır; Məsuliyyət uşaqlar arasında bölünür. | Uşaqlar arasında ünsiyyət qurmaq, birgə düşünmək, həll yolu axtarmaq və qrupda əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək. | Uşaqda başqalarının fikirlərinə hörmətlə yanaşmaq, liderlik keyfiyyətlərinin və sosial bacarıqların formalaşmasına imkan verir. | Dominantlıq: Bir uşağın digər uşağa hakim olma riski var (Gemini, 2009). Sosial mübarizə əsnasında mübahisələr yarana bilər (Aunola et al., 2007). |
| **Kollektiv iş** | Bütün qrup kollektivi tapşırığı birgə yerinə yetirir; Ümumi məqsədin müəyyənləşdirilməsi vacibdir. | Ümumi məqsəd uğrunda birgə çalışmağı öyrənmək; Kommunikativ bacarıqları inkişaf etdirmək; Qrup kollektivində ünsiyyətin möhkəmlənməsi | Ümumilikdə hədəfə yönəlməni möhkəmlədir; Kollektiv məsuliyyət hissi formalaşır; Dinləmə bacarıqlarını təkmilləşdirir. | Bəzən böyük qruplarda fikir ayrılıqları müzakirəni artıra bilər (Peer, 2020); İştirakçılığın azlığı: Bəzi uşaqlar kollektiv işdə daha az iştirak edə bilərlər, bu da onların öyrənmə imkanlarını məhdudlaşdıra bilər (Bennett, 2011). |

**Fərdi iş**

Fərdi iş uşağın öz bacarıq və maraqlarına uyğun şəkildə təlimə cəlb olunmasına imkan yaradır. Uşaq öz öyrənmə tempi ilə qərarlarını müstəqil qəbul edir, bu isə onun özünəinam, təhlil etmə və kreativ düşünmə bacarıqlarının inkişafına daha əlverişli şərait yaradır. Montessori yanaşmasına daha çox uyğunluğu var.

***Situasiya nümunəsi:*** Məsələn, "Ətraf aləmi təsvir edən şəkil çək" tapşırığında uşaq müstəqil şəkildə düşünür, nə çəkəcəyini seçir, yaradır və öz ətraf mühiti haqqında təsəvvürünü ifadə edir.

Elmi əsaslandırma:

- ✓ Maria Montessorinin tədris modelinə görə, fərdi iş uşağın öz inkişaf tempində, daxili motivasiyası ilə öyrənməsinə imkan yaradır.
- ✓ Bu forma uşaqların metapoznativ bacarıqlarını stimullaşdırır: yəni, öz öyrənmə prosesinə nəzarət və qiymətləndirmə vərdişləri formalaşır.

**Cütlərlə iş**

Cütlərlə iş zamanı uşaqlar arasında qarşılıqlı ünsiyyət, rol paylaşımı və empatiya inkişaf edir. Albert Banduranın sosial öyrənmə nəzəriyyəsinə əsasən, bu tip qarşılıqlı fəaliyyətlər zamanı uşaq həm başqasını öyrədir, həm də ondan öyrənir. Bu isə təkcə bilik deyil, həm də davranış modellərinin formalaşması üçün zəmin yaradır. Uşaq bir nəfərlə fikir paylaşmağı, razılaşmağı, qaydalara birlikdə əməl etməyi öyrəndikdə, bunu

qruplarla da (bir neçə uşaqla) etmək asanlaşır. Məqsəd: sosial qarşılıqlı əlaqə, empatiya, əməkdaşlıq bacarıqlarının inkişafıdır.

**Situasiya nümunəsi**: "Birlikdə qəsr quraşdırın" tapşırığı sayəsində uşaqlar arasında koordinasiya, rol paylaşımı və əməkdaşlıq bacarıqları formalaşır.

Elmi əsaslandırma:

- ✓ Albert Banduranın sosial öyrənmə nəzəriyyəsi göstərir ki, uşaqlar başqalarına baxaraq öyrənirlər — yəni, bir-birindən model götürmə effektlidir.
- ✓ Bu iş forması sosial konstruktivist yanaşmanı dəstəkləyir: uşaqlar bilikləri birgə qurur, müzakirə ilə mənalandırırlar.

**Kiçik qruplarla iş (3–4 nəfər)**

Qrup işi təhsilalanları həvəsləndirmək, onları fəal öyrənməyə təşviq etmək üçün əlverişlidir. Bu iş forması tənqidi düşünmə, ünsiyyət və qərar qəbuletmə bacarıqların inkişafının təşkilində effektivdir. Lakin diqqətli planlaşdırma və uyğunlaşdırma olmadan qrup işi təhsilalanları, müəllimləri məyus edə və vaxt itkisi ilə nəticələnə bilər. Qrup işini uğurla həyata keçirmək üçün bu təkliflərdən istifadə edin.

**Qrup otağında qrup işinin həyata keçirilməsi**

1. **Qrup işinə hazırlıq prosesi**

- Təhsilalanların qruplarda fiziki olaraq necə düzüləcəyinə diqqət edin.
- Təhsilalanlarla qrup işi ilə bağlı keçmiş təcrübələri haqqında danışın.
- Qrup işindən istifadənin mahiyyətini paylaşın.

**Qrup fəaliyyətinin dizaynı**

- Tədris məqsədlərini müəyyənləşdirin.
- Tapşırığı çətinləşdirin.
- İştirakı, qarşılıqlı asılılığı və ədalətli əmək bölgüsünü təşviq edən qrup tapşırıqlarını təyin edin.
- Qrup ölçüsünə düzgün qərar verin (qrup üzvləri nə qədər az bacarıqlı olsalar, qruplar bir o qədər kiçik olmalıdır (Gross Davis, 1993).
- Təhsilalanların qruplara necə bölünəcəyinə qərar verin.
- Qrup işi üçün kifayət qədər vaxt ayırın.
- Müxtəlif formalarda birgə iş dizayn edin (cütlər, kiçik-böyük qruplar)

Məsələn, əgər uşaq hələ qrupla işləməyə hazır deyilsə və cütlükdə işləmək istəyirsə, o zaman məşğələnizdə həm qrupla, həm də cütlərlə iş formasından istifadə edə bilərsiniz. Sizin strategiyanız sayəsində uşaq tədricən qruplarla iş fəaliyyətinə özünü hazırlayacaq.

2. **Qrup fəaliyyəti**

- Təlimatlar verməzdən əvvəl qrupları təşkil edin.
- Qrup birləşməsinin formasını təhsilalanlar üçün asanlaşdırın.
- Tapşırığı aydın şəkildə izah edin.
- Qrupun qarşılıqlı əlaqəsi üçün əsas qaydaları birlikdə təyin edin.
- Təhsilalanlara təlimatlarınızın aydın olub-olmadığına dair sual verin.

**Qrup tapşırığının monitorinqi**

- Qrupları izləyin, istinad üçün qeydlər aparın.
- Bildiklərinizi paylaşmağa tələsməyin (müzakirəyə müdaxilə etməyin).
- Fasilitator rolunuzu aydınlaşdırın**.**

3. **Qrup tapşırığını bitirmək**

- Qrup fəaliyyətinin dəyərləndirilməsini təmin edin. Fikir mübadiləsi...

*Şifahi hesabatlar,* vizual hesabatlar

- Təhsilalanların necə iştirak etməsini istədiyinizi modelləşdirin.
- Fikirləri təlim məzmunu və məqsədləri ilə əlaqələndirin.
- Araşdırmaya davam etmək üçün zəmin yaradın.
- Qrup işi prosesinə dair düşüncələrini alın. Bu, özünüanalizə yoldur.

Məqsəd: Fikir mübadiləsi, dinləmə bacarığı, məsuliyyət hissinin və kollektiv qərarvermənin inkişafı, əməkdaşlıq bacarıqlarının formalaşması.

**Situasiya nümunəsi:** "Vəhşi heyvanların maketlərini ayırın və təqdim edin" tapşırıq uşaqları elmi təfəkkürə, müşahidəyə və təqdimetmə bacarığına yönəldir. Onlar vəzifə bölgüsü edir, birlikdə məzmuna, prosesə, təqdimata dair qərarlar qəbul edir və hər kəsin hazırladığı müzakirədən sonra bir təqdimatda toplanır.

Elmi əsaslandırma:

✓ Con Dyunun "öyrənmə fəaliyyətdə baş verir" prinsipi burada əsas rol oynayır. Əməkdaşlıq şəraitində baş verən təcrübə əsaslı öyrənmə uşaqlarda kritik düşünmə və problem həll etmə bacarıqlarını gücləndirir.

- ✓ Kooperativ təlim strategiyası modelinin əməkdaşlıq əsasında komanda işi və fərdi nailiyyət, spesifik rollar kimi xüsusiyyətləri var. Qruplarla iş forması sosial rolların dəyişməsi, liderlik və dəstək vermə kimi prosesləri də öyrədir.

**Kollektiv iş**

Kollektiv iş forması, təlim prosesində bütün sinfin və ya böyük bir qrupun ortaq məqsəd ətrafında birgə fəaliyyət göstərməsini nəzərdə tutur. Bu forma məktəbəqədər təhsildə uşaqların sosiallaşması, ünsiyyət bacarıqları və ictimai məsuliyyət hissinin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Kollektiv iş zamanı birgə fəaliyyət göstərmək kommunikativ bacarıqların inkişafını təmin edir.

**Məqsəd:** İctimai məsuliyyət, komanda ruhu və genişmiqyaslı ünsiyyət bacarıqlarının inkişafı

**Situasiya nümunəsi**: "Bağçanın həyatini dizayn edin" layihəsi ilə uşaqlar öz yaradıcı ideyalarını birləşdirərək komanda daxilində nəticə əldə edirlər.

**Elmi əsaslandırma:**

- Brunerin "kəşfiyyat yolu ilə öyrənmə" nəzəriyyəsi bu cür fəaliyyətlərin uşaqların məlumatı tədqiqat yolu ilə mənimsəməsini dəstəklədiyini vurğulayır.
- Kollektiv işdə ortaq məqsədlə işləmək, konfliktlərin həlli və məsuliyyət paylaşımı bacarıqları formalaşır.

Tapşırıqları iş formalarına uyğun tərtib etmək vacibdir. Uşaqlarda idrak fəallığı yarada biləcək, aktiv fəaliyyət üçün bərabər imkanlar verən iş vərəqləri, məqsədəuyğun tapşırıqlar təlim məqsədlərinə çatmaq üçün vacib göstəricidir.




İş vərəqi N 1




İş vərəqi N 2

Göstərilən nümunələrdən birinci iş vərəqi 3-4 uşağın düşünməsi, müzakirə aparması, əməkdaşlıq etməsi üçün yetərli sayılmır. Bu səbəbdən fərdi iş forması üçün məqsədəuyğundur.

**Nəticə**

Təlim məqsədinin, uşaqların ehtiyaclarının, mövcud imkanların nəzərə alınması ilə seçilmiş və doğru icra edilmiş iş formaları pedaqoji prosesin tamlığını təmin edən amillərdəndir. Belə ki, düzgün qurulmuş strategiya yalnız biliklərin qazanılması ilə deyil, uşaqların şəxsiyyətinin müxtəlif istiqamətlərdə inkişafı ilə müşayiət olunur. Bu yanaşmalar, kurikulumun məqsəd və məzmununa uyğun şəkildə həyata keçirildikdə, uşaqlarda öyrənmə motivasiyasını artırır. Bilavasitə onların gələcək təhsil mərhələlərinə adaptasiyasını asanlaşdırır. Müxtəlif iş formaları uşaqların fərqli bacarıqlarını inkişaf etdirmək üçün xüsusi imkanlar yaradır. Uşaqların əməkdaşlıq, müstəqil düşünmə və məsuliyyət anlayışını inkişaf etdirmək üçün bu iş formalarını tətbiq etmək effektivdir.

Uşağın iş formalarına əsasən fəaliyyətini dəyərləndirmək üçün cədvəl

Rəhimzadə Elmira

| İş forması | Şəxs sayı | Sosiallaşma | Motivasiya | Bacarıq inkişafı | İştirak səviyyəsi | Qeydlər |
|---|---|---|---|---|---|---|
| **Fərdi iş** | 1 | Orta | Yüksək | Yüksək | Yüksək | |
| **Cütlərlə iş** | 2 | Yüksək | Orta | Yüksək | Yüksək | |
| **Qruplarla iş** | 3-4 | Yüksək | Yüksək | Orta-Yüksək | Orta | |
| **Kollektiv iş** | Bütün qrup | Çox yüksək | Orta | Orta | Hamısı | |

Nəticə etibarilə hər bir iş forması öz funksiyalarını yerinə yetirir və heç biri digərinə tamamilə üstünlük təşkil etmir. Ən effektiv təlim metodu – bu iş formalarının düzgün növbələnməsidir. Məsələn:

- Fərdi iş — müstəqil qərarvermə, kritik bacarıqların inkişafı üçün,
- Cütlərlə iş — ünsiyyətin inkişafı üçün,
- Qrup işi — əməkdaşlığın öyrədilməsi üçün,
- Kollektiv iş — ümumi hədəflərin reallaşdırılması üçün tətbiq olunur.

**Bütün situasiyalarda uşaqyönümlü yanaşmaq vacibdir.**

**İstifadə olunan ədəbiyyat:**


1. Məktəbəqədər təhsil proqramı (kurikulum) 2022.pdf
2. Addım-addım - UŞAQYÖNÜMLÜ, DEMOKRATİK MƏKTƏBƏQƏDƏR TƏHSİL "Addım-Addım" yanaşması 2021
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil İnstitutu - Məktəbəqədər təhsil: Tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab 2019. Laləzar Cəfərova, Səbinə Rəhimova
4. Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası https://www.tipii.edu.az/noduploads/document/maktabahazirliq-qruplarinda-isin-taskili-metodikasi-istirakci-vasaiti.pdf
5. https://psycnet.apa.org/fulltext/2014-55719-001.html


**İstifadə olunan şəkillər:**


**DYMO/Mimio Azerbaijan**
https://www.reddit.com/r/howto/comments/55atyk/how_to_make_12_different_shadow_puppets/?utm_source=share&utm_medium=web3x&utm_name=web3xcss&utm_term=1&utm_content=share_button